## TİPOLOGİYA 1. Narkotik vasitələrin qanunsuz dövriyyəsini təşkil edən mütəşəkkil dəstə tərəfindən əldə olunmuş vəsaitlərin yuyulması

Araşdırma nəticəsində narkotika tranziti və dövriyyəsi üzrə yüksək riskli hesab olunan "C" ölkəsindən narkotik vasitələri ölkə ərazisinə ("A" ölkəsinə) gətirərək qanunsuz dövriyyəsini təşkil etmiş mütəşəkkil dəstə (şəbəkə) tərəfindən çoxsaylı ödəniş terminalları, elektron pul kisələri və plastik kartlardan istifadə etməklə çoxmilyonlu həcmdə vəsaitlərin yuyulması sxemi müəyyən olunmuşdur.

Daxil olmuş şübhəli əməliyyatlar barədə hesabatların ətraflı araşdırılması nəticəsində ödəniş terminallarından xırda və bir-birinə yaxın məbləğlərdə intensiv olaraq vəsaitlər qəbul edən plastik kartlarla oxşar əməliyyatlar (eyni məbləğ intervalları, "C" ölkəsinə yaxın riskli coğrafi ərazi, eyni benefisiarlar dairəsi və s.) həyata keçirmiş çoxsaylı şəxslərin (təqribən 150 nəfər) şəbəkəsi və onlar arasında əlaqələr müəyyən edilmişdir.

Müvafiq şəbəkə əməliyyatları banklar tərəfindən ayrılıqda yoxlanılma imkanı zəif olan yüksək riskli bank alətləri (elektron pul kisələri) vasitəsilə qarışıq sxem üzrə həyata keçirmişdir.

İlkin olaraq "A" ölkəsində müxtəlif şəxslər tərəfindən çoxsaylı ödəniş terminallarından nağd qaydada müxtəlif plastik kart hesablarına xırda məbləğlərdə intensiv mədaxillər həyata keçirilmişdir. Daha sonra, mobil applikasiyalar üzərindən müvafiq plastik kart hesablarının öz aralarında ("card to card"), digər plastik kartlara, eləcə də müxtəlif elektron pul kisələrinə köçürmələr edilmişdir. Öz növbəsində, elektron pul kisələrindən də müvafiq kart hesablarına vəsaitlər köçürülmüşdür.

"A" ölkəsində narkotiklərin dövriyyəsindən əldə olunmuş vəsaitlərin hərəkəti "B" ölkəsində yerləşən əsas fiqurant olan şəxs tərəfindən koordinasiya olunmuş və bu şəxs tərəfindən də "A" ölkəsində vəsaitlərin cəmləşməsini təşkil edən bir neçə şəxs təyin olunmuşdur.

Vəsaitlərin cəmləşməsini təşkil edən şəxslərə köçürülmüş vəsaitlərin kiçik bir hissəsi qısa müddət ərzində "A" ölkəsi daxilində fərqli ünvanlarda olan "ATM"dən məxaric olunmuş, digər əsas hissəsi isə "B" ölkəsinə (əsas fiquranta) köçürülmüşdür. "B" ölkəsində müvafiq vəsaitlər əsas fiqurant olan şəxs tərəfindən bir sıra "B" ölkəsi vətəndaşlarının adlarına açılmış kartlara yönəldilmişdir. Bundan əlavə, digər "D" ölkəsinə məxsus ödəniş sistemində qeydiyyatdan keçmiş elektron pul kisələrindən də pul vəsaitlərinin "B" ölkəsində olan əsas fiquranta köçürüldüyü müəyyən olunmuşdur.

"ATM" vasitəsilə edilmiş məxaric əməliyyatları üzrə əldə olunmuş görüntülərə əsasən, bir sıra şəxslərə (o cümlədən hazırda həbsdə olan şəxsə) aid kartların digər üçüncü şəxslər tərəfindən istifadə edildiyi, eləcə də bir sıra şəxslərin kart hesabları üzrə həyata keçirilmiş əməliyyatların onların profilinə uyğun olmadığı müəyyən edilmişdir.

Bu şəxslərin sırasında "A" ölkəsinin rezidenti olan "C" ölkəsinin bir neçə vətəndaşı da mövcuddur. "A" ölkəsində "ABC" şirkətinin təsisçisi olan "C" ölkəsinə məxsus vətəndaşlardan biri müvafiq sxem üzrə ona daxil olmuş vəsaitlərin bir hissəsini "ABC" şirkətində aşağı vəzifədə

çalışan “C” ölkəsinin digər vətəndaşına köçürmüşdür (lakin şirkətin özünün bu şəbəkəyə aidiyyətini təsdiqləyən faktlar müəyyən olunmamışdır).

Bundan əlavə, “A” ölkəsinə məxsus bir sıra şəxslər tərəfindən “C” ölkəsinə məxsus digər şəxslərə də xırda məbləğlərdə vəsaitlər köçürülmüşdür. Müvafiq şəxslərə köçürülən vəsaitlərin əsas təyinatı olaraq borc müqaviləsi göstərilsə də, müqavilədə qeyd olunan borc məbləği ilə müvafiq hesaba edilmiş mədaxil əməliyyatlarının ümumi məbləği arasında kəskin fərq müəyyən edilmişdir.

Həmçinin mütəşəkkil dəstənin bəzi üzvlərinin (yaxın ərazilərdə qeydiyyat ünvanına malik və qohumluq əlaqələri olan şəxslər) əvvəllər narkotik vasitələrin satışı və qanunsuz dövriyyəsinin təşklinə, eləcə də dələduzluğa görə təqsirli bilinərək azadlıqdan məhrumetmə cəzasına məhkum olunmalarına dair faktlar aşkar edilmişdir.

Sürətli elektron ödəniş aləti ilə kartlara mədaxil olunan vəsaitlərin təhlili zamanı vəsaitlərin oğurlanmış kartlardan istifadə etmiş şəxslər (şəxsin kartına edilmiş mədaxillərin fərqli milliyətlərdən olan, adətən, adlarında cüzi dəyişiklik edilmiş, o cümlədən tanınmış şəxslərin adlarına oxşar adda olan şəxslərdən daxil olması) tərəfindən göndərilməsi müəyyən edilmişdir.

**İstifadə olunmuş mexanizmlər**

- ✓ Bank;
- ✓ İnternet ödəniş xidmətləri.

**İstifadə olunmuş alətlər**

- ✓ ödəniş (cash-in) terminalları;
- ✓ ATM-lər;
- ✓ elektron pul kisələri;
- ✓ plastik kartlar;
- ✓ köçürmələr.

**İstifadə olunmuş üsullar**

- ✓ yeni texnologiyalardan, elektron/mobil köçürmə və ödənişlərdən istifadə;
- ✓ üçüncü və “smerf” (smurf) şəxslərdən istifadə.

**İstifadə olunmuş metodlar (indikatorlar)**

- ✓ Kart hesablarına şəxsin profilinə uyğun olmayan yüksək intensivliklə xırda məbləğlərdə əməliyyatların aparılması və iri dövriyyələrin olması;
- ✓ Şəxslərin kart hesabına elektron pul kisələrindən xırda məbləğlərdə intensiv pul vəsaitlərinin daxil olması;
- ✓ Şəxslər barəsində narkotik vasitələrin satışı və qanunsuz dövriyyəsinə dair təqsirləndirici məlumatların olması;
- ✓ Əməliyyatlarda narkotik vasitələrin qanunsuz dövriyyəsi və tranziti üzrə yüksək riskli hesab olunan ölkə vətəndaşlarının və bu ölkə ilə sərhəd zonada yerləşən riskli ərazilərdə qeydiyyatda olan şəxslərin də iştirak etməsi;

- ✓ Oğurlanmış kartlardan istifadə etmiş şəxslər tərəfindən əməliyyatların həyata keçirilməsi;
- ✓ Cinayət yolu ilə əldə olunmuş vəsaitlərin çoxsaylı şəxslərdən bir neçə şəxsə ("smerf" şəxslərin cəlb olunması), daha sonra xarici ölkədə olan digər bir şəxsə köçürülməsi;
- ✓ Vəsaitlərin üçüncü şəxslər tərəfindən məxaric olunması;
- ✓ Şəxslərin vəsaitin mənbəyinə dair təqdim etdiyi məlumatların öz təsdiqini tapmaması və ya onların məlumat verməkdən imtina etmələri;
- ✓ Əməliyyatlara müxtəlif qeydiyyat ünvanlarına malik çoxsaylı şəxslərin cəlb olunması.

**Narkotik vasitələrin qanunsuz dövriyyəsindən əldə olunmuş vəsaitlərin yuyulması sxemi**

